# Qubadlı köçkünlərinin sağlamlığının qorunması diqqət mərkəzindədir



***Dünyanı bürüyən pandemiya təhlükəsi artmaqda davam edir. Ölkəmizdə də bu xəstəliklə mübarizə davamlı xarakter alıb. Dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən tədbirlər xəstəliyin nəzarətdə saxlanılmasına xidmət edir. Bu günlər məcburi köçkün rayonlarında da əhalinin bu xəstəlikdən qorunması üçün məqsədyönlü iş aparılır.***

Qubadlı məcburi köçkünlərinin sağlamlığının qorunması da rayon icra hakimiyyətinin daim nəzarətindədir. Rayon icra hakimiyyəti rəsmisindən aldığımız məlumata görə, xəstəliyin başladığı vaxtdan xüsusi tədbirlər reallaşdırılmağa başlanılmışdır. Xəstəliklə mübarizənin çətinliyi ondadır ki, məcburi köçkünlər kompakt şəkildə deyil, müxtəlif şəhər və rayonlarda məskunlaşmışlar.

38 563 nəfər əhalisi olan Qubadlı rayonunun məcburi köçkünləri respublikamızın 41 müxtəlif şəhər və rayonunda yerləşdirilmişdir. Belə ki, onların 23 min 271 nəfəri Sumqayıtda, 11 min 188 nəfəri Bakıda, 3145 nəfəri Abşeron rayonunda və 959 nəfəri isə digər rayonlarda məskunlaşmışdır. Dövlət başçısının diqqət və qayğısı sayəsində rayon əhalisinin sosial problemləri, demək olar ki, həll olunmuşdur. Bildiyimiz kimi, Abşeron rayonunun “Sumqayıt stansiyası” adlanan yaşayış məskənində və Sumqayıt şəhərinin 12-ci mikrorayon ərazisində inşa edilmiş şəhərciklərdə məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi işi tam başa çatdırılmışdır. Müvafiq olaraq min beş və min bir ailəyə hesablanan şəhərciklərin əsas kontingenti Qubadlı məcburi köçkünləridir.

Qeyd etmək lazımdır ki, rayon Mərkəzi Xəstəxanasının yanında Gigiyena və Epidemiologiya Mərkəzinin yeni binası tikilib istifadəyə verilmişdir. Hazırda Sumqayıt stansiyası yaşayış massivi adlanan ərazidə salınmış şəhərcik ətrafında tikinti işləri bu gün də sürətlə davam etdirilir.

Məlum olduğu kimi, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 2020-ci il martın 11-dən yeni növ koronavirusu pandemiya elan edib. Azərbaycanda da bu bəlaya qarşı ciddi mübarizəyə başlanılıb. Təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabineti yanında aidiyyatı dövlət qurumlarının rəhbər şəxslərindən ibarət operativ qərargah yaradılıb. Ölkəmizdə virusun yayılmasının qarşısının alınması və profilaktikası, əhalinin sağlamlığının qorunması ilə bağlı bütün lazımi tədbirlər bu gün ən yüksək səviyyədə davam etdirilir.

Rayon rəsmisinin sözlərinə görə, rayonda koronavirus infeksiyası ilə bağlı genişmiqyaslı iş aparılır. Belə ki, infeksiyanın yayılması hallarının qarşısının alınması, bu sahədə aparılan profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə müvafiq tapşırıqlara əsasən, rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən əhalinin kompakt məskunlaşdığı yerlərdə – Sumqayıt şəhəri 12-ci mikrorayon ərazisində 1005 ailənin və Sumqayıt stansiyası ərazisində 1001 ailənin məskunlaşdığı yeni şəhərciklərdə, rayon icra hakimiyyətinin inzibati binasında, inzibati ərazi dairələri üzrə nümayəndəliklərin binasında, bütün təhsil müəssisələrində, DSMF-nin rayon şöbəsinin, maliyyə şöbəsinin və Məşğulluq Mərkəzinin binaları da daxil olmaqla ümumilikdə 20-dən çox idarə müəssisədə sanitar-dezinfeksiya işəri həyata keçirilib.

Bildirək ki, Qubadlı rayon polis şöbəsinin əməkdaşları ilə birgə əhalinin sıx məskunlaşdığı ərazilərdə, o cümlədən Sumqayıt şəhəri 12-ci mikrorayon və Sumqayıt stansiyası ərazisində yerləşən məcburi köçkünlər üçün salınmış yeni şəhərciklərdə xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsinə nəzarət, habelə fərdi izahetmə-xəbərdarlıq işinin aparılması məqsədilə İHB aparatının, inzibati-ərazi nümayəndəliklərinin, eləcə də digər qurumların nümayəndələrindən ibarət 13 mobil qrup yaradılmışdır. Hazırda qrup üzvləri məskunlaşma yerlərində gündəlik maarifləndirmə işləri aparırlar.

Dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına əsasən, karantin rejimi ilə əlaqədar olaraq yaşı 65-i keçmiş insanlara, tənhalara, ahıl vətəndaşlara, eləcə də aztəminatlı ailələrə davamlı olaraq yardımlar paylanılır. Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondu tərəfindən rayonda 601 ailəyə ərzaq bağlaması paylanmışdır.

Nazirlər Kabineti yanında operativ qərargah tərəfindən qəbul edilmiş xüsusi karantin rejimi qaydaları və eyni zamanda, “Evdə qal!” çağırışının təmin olunması məqsədilə aztəminatlı ailələrə yardım aksiyası keçirilir. “Biz birlikdə güclüyük!” şüarı ilə həyata keçirilən və vətəndaş həmrəyliyini genişləndirmək məqsədi daşıyan bu kampaniyada Qubadlı rayonu da yaxından iştirak edir. Rayon icra hakimiyyətinin, həmçinin müxtəlif dövlət qurumları və təşkilatlar tərəfindən, eləcə də iş adamlarının köməyi ilə rayondan olan yaşlı insanlara, tənhalara, imkansız və işsiz ailələrə ərzaq yardımları edilir. Qubadlı rayon sakinlərinə ümumilikdə 2400-dən çox ərzaq bağlaması verilmişdir. Hər bir sakinlə xüsusi karantin rejiminin tələblərinə ciddi əməl etməyin və evdə qalmağın üstünlükləri barədə söhbətlər aparılır.

Qubadlılılar inanırlar ki, Prezident İlham Əliyevin pandemiya ilə bağlı həyata keçirdiyi davamlı tədbirlər tezliklə xalqımızı bu bəladan xilas edəcək.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***